Aprel 2016

# PwC Azerbaijan Times

## 5 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi**
- **Antiinhisar haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi**
- **Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi haqqında qanun layihəsi**
- **Banklar haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi**
- **İnvestisiya fondları haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi**



pwc

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi*

Bu dəyişikliyə əsasən Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar əlavə olaraq notariuslara və təsisçilərin vərəsələrinə də açıqlana bilər

### *Antiinhisar haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi*

Qanun layihəsi kartel anlayışını monopoliya yaradılmasına səbəb olan müqavilələr cərgəsinə aid edir.

Bu qanuna müvafiq olaraq kartel sövdələşməsi rəqiblər arasında qiymətlərə nəzarət etmək və yeni rəqiblərin bazara daxil olmasının qarsısını almaq məqsədilə imzalanan sazişdir. Kartel iştirakçıları bazarı ərazi prinsipinə, alqı-satqının həcminə, malların çeşidinə və ya müştərilərə görə bölüşdürür, və ya bazarda rəqabəti məhdudlaşdıran digər vasitələrə əl atırlar.

Başqa sözlə, kartel bazarda qarşılıqlı üstünlük əldə etmək məqsədiylə birlikdə əməkdaşlıq edən istehsalçıların birliyidir. Düşünürük ki, mövcud qanunvericiliyə yuxarıda göstərilən dəyişikliyin edilməsi irəliyə doğru atılmış addımdır və Azərbaycan iqtisadiyyatının inkişafına öz töhvəsini verəcəkdir. Belə ki, alıcılar əmtəə, iş və xidmətlərə görə yalnız rəqabət mühitində ağlabatan məbləğ ödəyə bilərlər.

### *Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi haqqında qanun layihəsi*

Milli Məclis Cinayət Məcəlləsini Antiinhisar haqqında qanuna edilən dəyişikliklərə uyğunlaşdırmaq məqsədilə öz rəsmi internet səhifəsində həmçinin Cinayət Məcəlləsinə dəyişikliklər edilməsi haqqında qanun layihəsi dərc etdirmişdir. Layihə dəyişikliyə əsasən bazar iştirakçıları arasında kartel sövdələşməsinin imzalanması və ya sağlam rəqabəti məhdudlaşdıran digər oxşar aktlar aşağıdakı məsuliyyətə səbəb olacaqdır:

- Cinayət nəticəsində əldə edilmiş gəlirin iki misli miqdarında cərimə edilməklə iki il müddətinə müəyyən

vəzifə tutma hüququndan məhrum etmə və ya iki il müddətinə müəyyən vəzifə tutma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılılacaqdır.

Əgər eyni əməllər təkrar törədilərsə, və ya mütəşəkkil dəstə tərəfindən törədilərsə, və ya xeyli miqdarda gəlir əldə etmək lə törədilərsə, və ya şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilərsə, belə əməllər üç il müddətinə müəyyən vəzifə tutma hüququndan məhrum edilməklə və ya cinayət nəticəsində əldə edilmiş gəlirin üç misli miqdarında cərimə edilməklə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaqdır.

### *Banklar haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi*

Bu dəyişikliklərə əsasən Banka aidiyyəti olan şəxslərin daha dəqiq siyahısını verir. Siyahıya aşağıdakı şəxslər daxil edilmişdir:

• Mülki Məcəllədə şərtləndirilən hüquqi şəxsə aidiyyatı olan şəxslər;

• birbaşa və ya dolayı yolla bankın qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya malik olan hər hansı şəxs

• bankın Audit Komitəsinin üzvləri;

• bankın daxili audit bölməsinin əməkdaşları;

• qərarların qəbul edilməsində iştirak edən bankın digər əməkdaşları;

• bankın və onun filiallarının baş mühasibləri;

• Mülki Məcəlləyə əsasən yuxarıdan sadalanan şəxslərin hər hansı biri ilə qohumluq əlaqələri olan şəxslər;

• banka aidiyyəti olan şəxs adından hərəkət etməyə hüququ olan şəxslər;

• Mülki Məcəllə ilə şərtləndirilən hüquqi şəxs və ya digər şəxslərin ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxslər.

### *İnvestisiya fondları haqqında qanuna dəyişikliklər edilməsi haqqında qanun layihəsi*

Yeni təklif edilən dəyişikliyə əsasən səhmdar investisiya fondu ilə ona aidiyyəti olan şəxslər arasında fondun aktivlərinin dəyərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdlər səhmdar investisiya fondu tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və səsvermədə iştirak etmək hüququ olan səhmdarların ümumi yığıncağının sadə səs çoxluğu ilə qəbul edilən qərarı ilə bağlanılır. Digər bir tərəfdən, səhmdar investisiya fondu ilə ona aidiyyəti olan şəxslər arasında fondun aktivlərinin dəyərinin 5 faizədək hissəsini təşkil edən əqdlərin səhmdar investisiya fondunun nizamnaməsinə uyğun olaraq səhmdarların ümumi yığıncağı, müşahidə şurası və ya icra orqanı tərəfindən qəbul edilən qərarı ilə bağlanması göstərilir.